

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 56 (23.468)

*31 mart 2020-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 28-də Bakıda “Yeni klinika” tibb müəssisəsinin açılışında iştirak ediblər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin – TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, müvəqqəti olaraq sabahdan etibarən bu müəssisədə koronavirusa yoluxan və ağır simptomları olan xəstələr müalicə alacaqlar. Bu tibb ocağında quraşdırılan avadanlıq istər müalicə, istərsə də müayinə işini ən yüksək səviyyədə və dəqiqliklə yerinə yetirməyə hərtərəfli imkan verir. Görülən bütün bu işlərin isə bir məqsədi var: Azərbaycan vətəndaşlarının hərtərəfli tibbi xidmətlə təmin olunması. Tibb ocağı 575 çarpayılıqdır. Burada cərrahiyyə, terapiya, təcili tibbi yardım, poliklinika, ürək və damar cərrahiyyəsi, neyrocərrahiyyə, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Xəstəxanada 1500-dən artıq həkim və tibbi heyət çalışacaq.

“Yeni klinika” tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev xəstəxananın kollektivi ilə görüşüb. Vurğulayıb ki, xəstəxananın açılışı yayın sonunda, payız aylarının əvvəlində nəzərdə tutulurdu. Ancaq pandemiyaya görə işlər sürətləndirildi, əlavə vəsait ayrıldı, qüvvələr səfərbər olundu və biz xəstəxananın mərhələli yollarla fəaliyyətə başlamasını təmin edirik. Pandemiya başa çatandan sonra bu xəstəxana öz profili üzrə fəaliyyətini davam etdirəcək.



## Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılsın.
2. “Koronavirusla Mübarizəyə Dəstək Fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası” təsdiq edilsin.
3. Müəyyən edilsin ki, Koronavirusla Mübarizəyə Dəstək Fondunun məqsədi koronavirus infeksiyasının Naxçıvan Muxtar Respublikasında yayılmasının qarşısını almaqdan və onunla mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etməkdən ibarətdir.
4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 mart 2020-ci il*

## Naxçıvan Muxtar Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna vəsait ayrılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Naxçıvanın İnkişafı və Müdafiə Fondundan 200000 (iki yüz min) manat Koronavirusla Mübarizəyə Dəstək Fonduna ayrılsın.
2. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 24 mart 2020-ci il*

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir

Martın 24-də dünyada pandemiya elan olunan virusun muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərə həsr olunmuş müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin üzvləri, rayon (şəhər) icra hakimiyyətlərinin başçıları, nazirlik, komitə, xidmət, idarə və müəssisələrin rəhbərləri iştirak etmişlər.

Müşavirədə Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 65 yaşdan yuxarı olan tənha ahıllara sosial xidmətlərin göstərilməsini təmin etməli, həftədə iki dəfə sosial xidmət işçiləri və sosial könüllülər onlara xidmət göstərməlidir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikasında izolyasiya yeri kimi Yoluxucu Xəstəliklər Mərkəzi müəyyən edilmişdir. Mərkəzdə karantinə alınan xəstələrin müayinəsi və virus aşkar edilən xəstələrin müalicəsi üçün lazımi şərait yaradılmış, yeni laboratoriya qurulmuşdur. Səhiyyə Nazirliyi tərəfindən mərkəzin fəaliyyəti nəzarətdə saxlanılmalıdır. Eyni zamanda muxtar respublikada tibbi ehtiyatların yaradılması davam etdirilməlidir. Səhiyyə Nazirliyi muxtar respublikanın tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarətini, eləcə də vacib göstərişlər olmadan və zərurət yaranmadıqda ambulator xəstə qəbulunu dayandırmalıdır. Nazirlik Dövlət Gömrük Komitəsi ilə birlikdə xarici ölkələrdən qayıdan muxtar respublika sakinlərini gömrük-keçid məntəqələrində tibbi yoxlamadan keçirməli, hərarəti olanlar təcili Yoluxucu Xəstəliklər Mərkəzində karantinə alınmalı və müvafiq tədbirlər görülməlidir.

Muxtar respublikaya girişlərin ciddi nəzarətə götürülməsini vurğulayan Ali Məclisin Sədri Daxili İşlər Nazirliyinə Səhiyyə Nazirliyi və rayon (şəhər) icra hakimiyyətləri ilə birlikdə xarici ölkələrdən Naxçıvana gələn muxtar respublika sakinlərində hərarət və digər əlamətlər müşahidə olunmadıqda həmin şəxslərin evlərində 3 gün müddətində karantində saxlanılmasını təmin etməyi, sahə müvəkkilləri və inzibati ərazi dairəsi üzrə nümayəndələr tərəfindən karantin rejiminə ciddi nəzarət olunmasını tapşırmışdır.

Daxili İşlər Nazirliyi Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ilə birlikdə xidmət sahələrində qaydalara əməl olunmasına nəzarəti gücləndirməli, muxtar respublika ərazisində fəaliyyət göstərən kafe, restoran və adamların toplaşdığı başqa ictimai-iaşə müəssisələrinin iş rejimi qısaldılaraq $17^{00}$-dək müəyyən edilməlidir.

Ali Məclisin Sədri sahibkarlıq subyektlərinin və işçilərinin iqtisadi və sosial vəziyyətini nəzərə alaraq İqtisadiyyat Nazirliyinə aid qurumlarla birlikdə ərzaq mağazaları və apteklər istisna olmaqla, muxtar respublika ərazisindəki bütün iri ticarət mərkəzlərinin fəaliyyətini məhdudlaşdırmağı, mağazaların ərzaqla normal təminatına diqqəti artırmağı, aid qurumlarla birlikdə ehtiyatların yaradılmasının davam etdirilməsini tapşırmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi İqtisadiyyat Nazirliyi ilə birlikdə mövcud vəziyyətlə bağlı fəaliyyətində durğunluq yaranmış xidmət sahələrində işçilərin öz hesabına məzuniyyətə buraxılmasının qarşısını almalı, həmin xidmət sahələrində çalışan işçilərə minimum əməkhaqqı məbləğində vəsaitin ödənilməsini təmin etməlidirlər.

Müşavirədə tapşırıldı ki, ümumtəhsil məktəblərinin və məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətlərinin dayandırılması ilə əlaqədar hər ikisi işləyən və himayəsində azyaşlı uşaq olan (1-10 yaş) valideynlərdən biri üçün güzəştlər tətbiq edilməli, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi digər aid qurumlarla birlikdə qeyd olunan məsələni əmək qanunvericiliyinə uyğun tənzimləməlidir. Mədəniyyət Nazirliyi tabeliyindəki müəssisələrin (kitabxana, muzey, teatr, klub və sair) hər birində dezinfeksiya işləri aparmalı, iş saatları məhdudlaşdırılmalı və əməkdaşların növbəlilik əsasında işə çıxması təmin edilməlidir.

Ali Məclisin Sədri qeyd etmişdir ki, bütün təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesi dayandırıldığından Təhsil Nazirliyi ümumtəhsil məktəblərində sinif rəhbərləri tərəfindən siniflər üzrə dərs cədvəlinə uyğun mövzuların seçilib şagirdlərə çatdırılmasını davam etdirməlidir. Gənclər və İdman Nazirliyi isə idman komplekslərinin və zallarının, eləcə də özəl fitnes mərkəzlərinin fəaliyyətini dayandırmalı, dezinfeksiya işləri aparılmalıdır.

Müşavirədə dini mərasimlərin keçirilməsi məsələsi də müzakirə olunmuş və tapşırılmışdır ki, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi və icra hakimiyyətləri yas mərasimlərinin keçirilməsi ilə bağlı qaydaları diqqətdə saxlamalı, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimləri 1 gün keçirilməli və bu zaman çay, yemək verilməməli, əhali yeni qaydalar barədə məlumatlandırılmalıdır. “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində də çay verilməsi dayandırılmalı, bütün ibadət və ziyarət yerləri dezinfeksiya olunmalı, cümə namazlarının evdə qılınması sakinlərə tövsiyə edilməlidir.

Naxçıvan Muxtar Respublikasına təyyarə uçuşları dayandırıldığından Dövlət Gömrük Komitəsinə Sədərək gömrük-keçid məntəqəsindən keçməklə Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınan Azərbaycan Respublikası vətəndaşlarının (ölkəmizin digər bölgələrindən olanlar) keçidini, Dövlət Miqrasiya Xidməti və Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsi ilə birlikdə isə bütün xarici ölkə vətəndaşlarının muxtar respublikaya gəlişini dayandırmaq, həmçinin muxtar respublika ərazisinə bütün nəqliyyat vasitələrinin giriş-çıxışının dayandırılması, yalnız tranzit yüklərin daşınmasına icazə verilməsi, tranzit yük maşınlarının dezinfeksiya edilməsi, kiçikhəcmli yüklərin sərhəd gömrük anbarlarında boşaldılması, sürücülərin mütəmadi yoxlanılması və onların hərəkət qrafikinə nəzarət edilməsi tapşırılmışdır.

Beynəlxalq Hava Limanından muxtar respublikaya gələn və gedən vətəndaşlar ciddi şəkildə yoxlanılmalı, Səhiyyə Nazirliyi və Dövlət Gömrük Komitəsi bununla bağlı Hava Limanına zəruri köməklik göstərməlidir.

Qeyd olunmuşdur ki, Kənd Təsərrüfatı Nazirliyi icra hakimiyyətləri ilə birlikdə hər həftənin şənbə və bazar günləri muxtar respublikada yarmarkaların keçirilməsini davam etdirməlidir.

*Ardı 2-ci səhifədə*

Dövlət Təhlükəsizliyi Xidməti ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi qabaqlayıcı tədbirlər görməli, əsassız məlumatların yayılmasının qarşısı alınmalıdır.

Əlahiddə Ümumqoşun Ordu, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası və Naxçıvan Əlahiddə Əməliyyat Briqadası muxtar respublika ərazisində yerləşən hərbi hissə və birləşmələrdə görüşləri və qapalı yerlərdə toplantıları məhdudlaşdırmalı, şəxsi heyətin geyim, ərzaq və digər təminatını nəzərə alaraq ehtiyatların yaradılmasını davam etdirməlidir.

Penitensiar Xidmət cəzaçəkmə müəssisələrində dezinfeksiya tədbirləri görməli, görüşlər dayandırılmalı, məhkumların qidalanması və səhhəti diqqətdə saxlanılmalıdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğu karantin rejimini pozan və xəstəliyin yayılmasına səbəb olan şəxslərin Cinayət Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb olunması üçün tədbirlər görməlidir.

Aid qurumlar verilən tapşırıqların icrası barədə mütəmadi məlumat təqdim etməlidir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda meliorasiya və irriqasiya tədbirlərinin əhatə dairəsi genişləndirilir

## *Kəngərli və Şahbuz rayonlarında yeni qapalı suvarma şəbəkələri və nasos stansiyaları qurulur*





Ərzaq təhlükəsizliyinin təmin olunmasında su ehtiyatlarından səmərəli istifadə mühüm amildir. Ölkə Prezidenti cənab İlham Əliyev bu məsələnin vacibliyini vurğulayaraq demişdir: ***“Su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək Azərbaycan üçün strateji əhəmiyyətli bir məsələdir”.***

Muxtar respublikada aqrar sahənin inkişafında meliorasiya və su təsərrüfatı sisteminin müasirləşdirilməsi əsas istiqamət kimi götürülür, elmi əsaslara söykənən təhlillər aparılır, mütərəqqi suvarma şəbəkələri və nasos stansiyaları qurularaq istifadəyə verilir. Yaradılan şərait torpaq və su ehtiyatlarından səmərəli istifadə ilə yanaşı, əkinçiliyin inkişafına və bol məhsul istehsalına səbəb olmuşdur. Bu da əhalinin məşğulluğunun və rifahının yaxşılaşmasına xidmət edir. Son illər bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikanın Babək, Culfa, Kəngərli və Şahbuz rayonlarında 5 min hektara yaxın torpaq sahəsində qapalı suvarma şəbəkələri qurulmuş, su təminatı olmayan və uzun müddət əkilməyən torpaqlar yenidən əkin dövriyyəsinə qatılmışdır. Bu il də Kəngərli və Şahbuz rayonlarında yeni qapalı suvarma şəbəkələri tikilir.

Martın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz kəndində qapalı suvarma şəbəkəsinin tikintisinə baxmışdır.

Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev məlumat vermişdir ki, qapalı suvarma şəbəkəsi Böyükdüz kəndində “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin, eləcə də dövlət və bələdiyyə mülkiyyətində olan 800 hektar ərazini əhatə edəcəkdir. Tikinti zamanı 5197 metr ana xətt və 73 min 217 metr paylayıcı boru xətti çəkiləcəkdir. Ümumilikdə, qapalı suvarma şəbəkəsi qurularkən 80 kilometrdən artıq boru xətləri çəkiləcək, torpaq sahələrinin dayanıqlı su təminatı yaradılacaqdır. Xətlərin üzərində 145 sutənzimləyici siyirtmə, 780 hidrant və 138 suboşaldıcı quraşdırılacaqdır.



Bildirilmişdir ki, yeni suvarma şəbəkəsinin qurulması da torpaqlardan daha səmərəli istifadə olunmasına imkan verəcəkdir. “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 1300 hektar sahədə taxıl əkilmişdir. Yaradılan şəraitin nəticəsidir ki, hazırda muxtar respublikada taxıl əkini zamanı toxuma olan tələbat yerli istehsal hesabına ödənilir.

Böyükdüz kəndində qurulacaq qapalı suvarma şəbəkəsinin su təminatı Araz su anbarında tikiləcək pilləli nasos stansiyası vasitəsilə həyata keçiriləcəkdir. Su anbarında hər birinin gücü saniyədə 1500 litr olan 2 nasos quraşdırılacaq və ikinci nasos stansiyasına qədər 2 kilometrlik boru xətti çəkiləcəkdir. İkinci nasos stansiyası üçün ərazidə yeni bina və hovuz inşa olunacaq, hər birinin gücü saniyədə 840 litr olan 3 nasos quraşdırılacaqdır. Nasos stansiyasından su 3,8 kilometrlik boru xətti ilə Böyükdüz kəndi ərazisindəki 4 min kubmetr həcmi olan paylayıcı hovuza vurulacaq və öz axını ilə qapalı suvarma şəbəkəsinə ötürüləcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Muxtar respublika kənd təsərrüfatı rayonudur. Ona görə də aqrar sahənin inkişafına hərtərəfli diqqət göstərilir, yeni suvarma şəbəkələri tikilir. Bu il də muxtar respublikada əsas investisiya qapalı suvarma şəbəkələrinin qurulmasına və nasos stansiyalarının tikintisinə ayrılmışdır. Böyükdüz kəndi ərazisində yeni qapalı suvarma şəbəkəsi qurulduqdan sonra “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti üçün ayrılmış 1500 hektardan artıq torpaq sahəsi əkin üçün tam yararlı vəziyyətə gətiriləcək, eyni zamanda dövlət və bələdiyyə mülkiyyətində olan torpaqların su təminatı yaxşılaşdırılacaqdır. Şahbuz rayonunun Sələsüz, Türkeş və Mərəlik kəndlərinin ərazilərində qapalı suvarma şəbəkəsinin, eyni zamanda rayonun Külüs kəndində nasos stansiyasının qurulması isə 1600 hektara yaxın torpaq sahəsini əkin dövriyyəsinə qatacaqdır. Həyata keçirilən bu layihələr muxtar respublikada ərzaq təhlükəsizliyinin və əhalinin məşğulluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edilməli, torpaqlar əkilməli, bol məhsul istehsal olunmalı, qapalı suvarma şəbəkəsinin tikilməsinə sərf olunan vəsait geri qayıtmalıdır.

Ali Məclisin Sədri torpaqların düzgün qeydiyyata alınması və kateqoriyaların uyğun icarəyə verilməsi, tikinti işlərinin mühəndis texniki tələblərə uyğun aparılması və payız əkin mövsümünə qədər başa çatdırılması, yeni qapalı suvarma şəbəkələrinin qurulması ilə bağlı layihələrin hazırlanması barədə tapşırıqlar vermişdir.

Böyükdüz kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Saleh Quliyev yaradılan şəraitə görə sakinlər adından Ali Məclisin Sədrinə minnətdarlıq etmiş, torpaqlardan səmərəli istifadə edəcəklərinə, əkin sahələrini genişləndirəcəklərinə söz vermişdir.

# Şahbuzda yeni torpaqlar əkin dövriyyəsinə qatılır

2019-cu ildə Şahbuz rayonunun Türkeş kəndində yeni qapalı suvarma şəbəkəsi də qurulmuş, uzun müddət suvarılmayan torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır. Görülən işlərin davamı olaraq bu il rayonun Sələsüz, Türkeş və Mərəlik kəndlərində yeni qapalı suvarma şəbəkəsi qurulur.

Martın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov aparılan tikinti işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, qapalı suvarma şəbəkəsi 270 hektar torpaq sahəsini əhatə edir. Layihə xəttinin ümumi uzunluğu 34 min 808 metrdir. Ərazidə müxtəlif diametrli borularla 7534 metr ana xətt və 27 min 274 metr paylayıcı suvarma şəbəkəsi çəkiləcəkdir. Xətlərin üzərində 51 sutənzimləyici siyirtmə, 286 hidrant və 81 suboşaldıcı quraşdırılacaqdır.

Sələsüz, Türkeş və Mərəlik kənd sakinlərinin əsas məşğuliyyət sahəsi əkinçilik və heyvandarlıqdır. Kəndlərdə yeni qapalı suvarma şəbəkələrinin qurulması əkinçiliyin inkişafına səbəb olmuşdur. Bu da sakinlər tərəfindən razılıqla qarşılanır. 2019-cu ildə Türkeş kəndində istifadəyə verilmiş 343 hektar qapalı suvarma şəbəkəsinin 258 hektarında payızlıq taxıl, 10 hektarında yazlıq bitkilər əkilmişdir. Ərazinin qalan 75 hektarında isə mərhələli şəkildə yazlıq əkinlər aparılır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir ki, aparılan abadlıq quruculuq işləri, yeni suvarma şəbəkələrinin qurulması, torpaqların əkin dövriyyəsinə qatılması kəndlərin gələcək inkişafına xidmət edir. Sələsüz, Türkeş və Mərəlik inkişaf etmiş müasir kəndlərin sırasına qoşulacaqdır. İki il ərzində bu kəndlərin 600 hektardan artıq torpaq sahəsində suvarma şəbəkəsinin qurulması imkan verəcəkdir ki, sakinlər bol məhsul istehsal edərək ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasında iştirak etsinlər. Bu tədbirlər dövlət vəsaiti hesabına həyata keçirilir, tikinti işləri müvafiq dövlət qurumları tərəfindən aparılır. Məqsəd ondan ibarətdir ki, torpaqlar əkilsin, bol məhsul istehsal edilsin.

Sakinlər adından minnətdarlıq edən Sələsüz kənd bələdiyyəsinin sədri Bəxtiyar Tarverdiyev yaradılan şəraitdən səmərəli istifadə edəcəklərini bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**



## Türkiyə qəzetləri Naxçıvanda koronavirusa qarşı aparılan sistemli mübarizədən yazır

Türkiyənin nüfuzlu "Yeşil İğdır" və "15 Temmuz" qəzetləri "Naxçıvanda koronavirusla mübarizə yüksək səviyyədədir" sərlövhəli məqalə yayıb.

Məqalədə dünyada sürətlə yayılan yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı Naxçıvan Muxtar Respublikasında görülən çoxistiqamətli tədbirlərdən bəhs olunur. Diqqətə çatdırılır ki, muxtar respublikada koronavirusla mübarizə tədbirləri Prezident cənab İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq sistemli şəkildə və nizamlı qaydada aparılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun mövzu ilə bağlı fikirlərini oxucuların diqqətinə çatdıran nəşrlər Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondunun təsis edilməsi, ictimaiyyətin bu təşəbbüsə fəal şəkildə qoşulması barədə türkdilli oxucuları geniş məlumatlandırıb.

Yazıda, həmçinin vurğulanır ki, Türkiyə ərazisindən Naxçıvana daxil olan azərbaycanlılar üçün yaradılan yüksəksəviyyəli karantin yerlərində onların bütün zəruri ehtiyacları qarşılanır. Naxçıvan əhalisi yerli hakimiyyətlə birgə koronavirusa qarşı mübarizədə fəal iştirak edir. İndiyədək muxtar respublikada infeksiya daşıyıcısı aşkar edilməyib.

**Sabir ŞAHTAXTI**
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Ankara***

***Erməni millətçilərinin Azərbaycan xalqına qarşı ərazi iddialarının, təcavüzünün və soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. İki əsr ərzində Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "Böyük Ermənistan" dövləti yaratmaqdı.***

***31 mart Azərbaycanlıların Soyqırımı Günüdür***

## Azərbaycanlılara qarşı törədilən soyqırımı cinayətlərinin əsas mahiyyəti və pərdəarxası

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti tam açılmış, həmin hadisələrə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Dahi şəxsiyyət torpaqlarımızın işğalının qarşısını almış, güclü dövlət və güclü ordu yaratmış, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşası istiqamətində tədbirlər görmüşdür. Ulu öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı günü siyasəti dərindən təhlil olunmuş, 31 martın Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması qərara alınmışdır. Həmin Fərmanda deyilir: ***"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisənin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Respublikası bu gün soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin azərbaycanlıların soyqırımının 100 illiyi haqqında 2018-ci il 18 yanvar tarixli Sərəncamında qeyd olunur: ***"Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerləyeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmişlər..."***

İnkaredilməz həqiqətdir ki, tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. "Böyük Ermənistan" vədi ilə qızışdırılan ermənilər aldığı silah-sursat və maddi qaynaqlarla təşkilatlanır, təlimatlandırılır və genişmiqyaslı cinayət hadisələrinə imza atırdılar. O dövrün yazılı mənbələri və arxiv materialları 1905-1907-ci illərdə Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda ermənilərin Çar Rusiyasının yardımı ilə soyqırımı gerçəkləşdirdiklərini sübut edir. Hələ XX əsrin əvvəllərində çarizmin Qafqazdakı canişini qraf Vorontsov-Daşkov çar II Nikolaya yazdığı məktubunda "münaqişənin başlanması üçün kiçik bir bəhanənin kifayət edəcəyini" bildirmişdi. Amerikalı alim Castin Makkarti isə münaqişənin hansı səbəblərdən ortaya çıxması ilə bağlı yazır ki, çar Rusiyası hər iki millət arasında baş verən münaqişəni öz maraqları baxımından faydalı görürdü. Tarixi sənədlərdə erməni daşnakları ilə birlikdə çar məmurlarının da milli münaqişəni bilavasitə qızışdırdıqları, evlərin, mağazaların talan edilməsində, qətliamların törədilməsində birbaşa rol oynadıqları yer almaqdadır.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı milli qırğın 1905-ci il fevral ayının ilk ongünlüyündə Bakıdan başlandı və tezliklə Azərbaycanın digər bölgələrinə, o cümlədən Naxçıvana da yayıldı və getdikcə şiddətləndi. Naxçıvandakı qırğın daşnakların və çar məmurlarının təhrikləri nəticəsində baş verdi. 1905-ci il hadisələrinin şahidi olan Məmməd Səid Ordubadi "Qanlı illər" adlı əsərində münaqişənin ortaya çıxmasının səbəblərini belə izah edir: 1) Erməni Daşnaksütyun komitəsinin müstəbid idarə üsulunu təşkil etməsi, qızışdırıcı mövqe tutması; 2) Məhəlli hökumət məmurlarının etinasızlığı və çar üsul-idarəsinin ikili oyunu; 3) Müsəlman əhalinin elmsizliyi və baş verən siyasi hadisələrdən bixəbər olması və 4) Ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmaları.

Ermənilərin türkə olan nifrət psixologiyası 1905-1907-ci illərlə məhdudlaşmamış, 1918-ci ildə də davam etmişdir. Məhz bunun nəticəsidir ki, mart soyqırımı olaraq tarixə keçən 1918-ci il hadisələrində hədsiz sayda insan erməni zülmünün qurbanı olmuşdur. 1918-ci il mart ayının 30-da Bakı Sovetinin rəhbərlik etdiyi bolşevik-daşnak hərbi dəstələri Bakı şəhərində türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirməyə başladı. Üç gün davam edən Bakı qırğınları zamanı əks-inqilabçı və müsavatçı adı ilə 12 min nəfər dinc əhali amansızlıqla qətlə yetirildi. Bolşevik-daşnak qüvvələri tərəfindən o dövrün gözəl memarlıq abidəsi olan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası, Şərqin ilk teatrı olan "Tağıyev teatrı", "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları yandırıldı və "Təzə pir" məscidi dağıdıldı. Bununla da, sadəcə, insanlar soyqırımına məruz qalmadı, Türk və İslam mədəniyyət mərkəzləri, tarixi abidələr də yox edildi.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Milli hökumət erməni-daşnak qüvvələrinin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi cinayətləri araşdırmaq üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Həmin komissiya törədilən qətliamlara aid sənədlər topladı. Bu sənədlər toplusu 36 cilddən ibarət idi.

Azərbaycanın bütün bölgələrində – Bakıda, Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda eyni ssenari ilə əhali ağır işgəncələrlə qətlə yetirilirdi. Dro, Njde, Hamazasp, Yapon, Andranik kimi cəlladlar Azərbaycan xalqının qanına susamışdılar. Naxçıvanda baş verən cinayətlər haqqında isə xüsusilə bəhs etmək lazımdır. Bir məsələni vurğulayaq ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi müəyyən səbəblərdən və çətinliklərdən Naxçıvana lazımi dəstək verə bilmirdi. Naxçıvan əhalisi özü ermənilərə müqavimət göstərir, hətta erməni silahlılarını məğlub edirdilər. Ancaq bununla birlikdə ermənilər tərəfindən törədilən cinayətlər Naxçıvandan da yan keçmədi.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür, yaşayış məntəqələrini yandırır və ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində Andranik Ozanyan, Dro, Njde, Doluxanov, Yapon və digər cəlladların başçılıq etdikləri dəstələr böyük rol oynamışlar. Onlar təkcə Gilançay və Əlincəçay vadilərində 62 kəndi viran qoymuş, əhalisini isə amansızlıqla qətlə yetirmişdir. Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərmiş Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Onun "Qanlı günlərimiz" əsərindən – gündəlik qeydlərindən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 74 min azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür. O zaman ilk soyqırımını Culfa rayonunun Yaycı kəndində törətmişlər. Erməni qaniçənlər Araz çayı sahilindəki 4 minə yaxın əhalisi olan Yaycı kəndini yerləyeksan etmiş, kənd əhalisinin 2000-2500-nü qətlə yetirmiş və Araz çayına tökmüşdülər. Cəsədlərin sayı o qədər çox idi ki, böyük bir qəbiristanlıq yaranmışdı. O vaxtdan bu, Yaycı qəbiristanlığı olaraq tarixə düşmüşdür. Həmin vaxt Nehrəm ətrafında rüsvaycasına məğlub edilmiş Andranikin dəstələri geri qaçmağa məcbur olmuşdu. Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan kəndləri dağıda-dağıda bu istiqamətdə 2 min azərbaycanlını öldürmüşdür. Ordubad ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərksilah olunmuş, xeyli hissəsi qətlə yetirilmişdir. Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilmişdir.

Arxiv materiallarında ermənilərin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində isə 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin qətlə yetirildiyinə dair məlumatlar yer almaqdadır.

Tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kəndin də erməni komitəçilərinin hücumuna məruz qaldığı və əhalisinin isə Araz çayına atılması ilə bağlı məsələlər göstərilir. Müsəlmanlar tərəfindən ələ keçirilən ermənilər Naxçıvanda və onun bütün kəndlərində türklərin qətlə yetiriləcəkləri və hamısının Araz çayına atılacaqlarına dair əmr aldıqlarını etiraf etmişdilər. Erməni dəstələrinə yazılı olaraq göndərilən əmrdə deyilir: *"Şərur əhalisini Araz çayına atmaq üçüncü alay komandanlığının əsas vəzifəsidir"*. Digər bir fakt: Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Onlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idi. 15 mindən artıq erməni quldurunun silahsız, müdafiəsiz insanların üzərinə hücumu nəticəsində bir gün ərzində 10 mindən artıq günahsız insan qətlə yetirildi. Bu vaxt Duzdağ tərəfdən açılan top səslərini Andranik eşitməsəydi, orada bir nəfər də sağ qalmayacaqdı. Bu elə bir cinayət idi ki, mənbələrin verdiyi məlumata görə, 20 gün ərzində kənd içərisində bir-birinin üstünə qalanmış meyitləri daşıyıb qurtarmaq mümkün olmurdu.

Andranikin dəstəsi Naxçıvan və onun ətraf kəndlərində törətdiyi vəhşiliklərdən sonra Şuşayadək Azərbaycan kəndlərini oda yaxıb viran qoymuş, sonra Dərələyəzə qayıtmış, Keşişkənddə Yapon adlı digər erməni daşnakı ilə birləşərək Çivə kəndinə hərəkət etmiş, yolüstü Əmov kəndində qırğın təşkil etmişdir. O, Şərur rayonunun Danzik, Dizə kəndlərinə də hücum etmək istəmiş, lakin məğlub olmuşdu. Andranik bu məğlubiyyətin əvəzini Qarağac və Şabili kəndlərini yandırıb əhaliyə divan tutmaqla çıxır. Törətdiyi qırğınların miqyası o qədər böyük idi ki, Andranik qanlı cinayətləri ilə artıq Naxçıvanı öz hakimiyyətinə tabe etdiyini düşünürdü. Onun məqsədi Şuşadan başlamış Aralıq dənizinədək uzanan əraziləri nəzarət altına almaq idi. Bu minvalla Azərbaycan və Türkiyənin 6 əyaləti "Böyük Ermənistan"ın tərkibinə daxil olmalı, yəni "dənizdən dənizə" terrorçu, hərbiləşdirilmiş Daşnak Partiyasının ruhuna uyğun hökumət yaradılmalı idi.

1915-1921-ci illər arasında Cənubi Azərbaycanda ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90 mindən çox idi. Bütün bunlara yanaşı, naxçıvanlılar mərdliklə döyüşmüş, Naxçıvanın erməni işğalına məruz qalmasına yol verməmişlər. Bununla əlaqədar 20 tabor yaradılmış, onlar silahlandırılmış, üçüncü Kalbalı xanın başçılığı ilə 500 nəfərdən ibarət süvari dəstə böyük rəşadət göstərmişdir. Onlar erməni daşnaklarına dəfələrlə layiqli cavab vermiş, ərazidən qovmuşlar. Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Fətəli xan Xoyski parlamentin iclasında Naxçıvanın qəhrəman əhalisinin Vətənə qovuşmaq üçün mübarizəyə qalxıb azadlığa çıxdıqlarını söyləmişdi. Arxiv sənədlərindən məlum olur ki, o dövrdə Naxçıvanda 6 minədək üzvdən ibarət silahlı dəstə olmuşdur. Onlar döyüş keyfiyyətlərinə görə, ingilislərin də təsdiq etdiyi kimi, erməni qoşun hissələrindən heç də geri qalmırdı. Ermənistanın birinci baş naziri Ovanes Kaçaznuni 1923-cü ildə etiraf etmişdi ki, "...inzibati tədbirlərlə müsəlman rayonlarında qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın salmağa məcbur olduq və hətta uğursuzluğa uğradıq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"1918-1920-ci illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş ikinci soyqırımı həm miqyası, həm də vəhşiliyi etibarı ilə bəşəriyyət tarixində ən qanlı cinayətdir. Onun mahiyyətini başa düşmək üçün faktlara diqqət yetirmək kifayətdir: Bakı quberniyasında 229, Gəncə quberniyasında 272, İrəvan quberniyasında 211, Zəngəzurda 115, Qarabağda 157, Qars əyalətində 92, İqdırda 60, Vedibasarda 118 Azərbaycan kəndi tamamilə dağıdılmış, əhalisinin əksəriyyəti öldürülmüşdü. O dövrdə azərbaycanlıların yaşadıqları elə bir ərazi yox idi ki, orada erməni talanı və vəhşiliyi həyata keçirilməsin. Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvanda da soyqırımlar törədilmişdir. Arxiv sənədlərindən aydın olur ki, 1910-cu ildə Naxçıvanda 146 min nəfər əhali yaşayırdısa, 1921-ci ildə burada yaşayanların sayı 74 min azalaraq 72 min nəfər olmuşdu. Azərbaycanın Ədliyyə Komissarı, görkəmli diplomat Behbud ağa Şahtaxtinski Azərbaycan İnqilab Komitəsinin 1921-ci il 19 aprel tarixli iclasında Naxçıvandakı vəziyyətə dair çıxışında bildirirdi ki, ermənilər Naxçıvan, Ordubad və Şərur-Dərələyəzdə 240 kəndi dağıdaraq xarabalığa çevirmiş, əhalisini öldürmüş, əmlaklarını qarət etmişlər".***

*Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir və bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir.*

**"Şərq qapısı"**

Oxunması zəruri olan kitablar

## Eynəli bəy Sultanovun "Məqalələr"ində erməni məsələsi

*XIX əsrin sonu, XX əsrin əvvəllərinə məxsus Naxçıvan ədəbi, elmi mühitinin görkəmli simalarından biri də Eynəli bəy Sultanovdur. Tanınmış yazıçı, publisist, ictimai xadimin çoxcəhətli fəaliyyəti, uzun illər xaricdə yaşaması onun dünyagörüşünün formalaşmasında, xalqın müasirləşməsi uğrunda daha fəal mübarizə aparan, millətsevər bir ziyalı kimi yetişməsində müstəsna rol oynamışdır. Müxtəlif hüquq idarələrindəki fəaliyyəti – quberniya idarəsində birinci dərəcəli dəftərxana xidmətçisi, İrəvan Dairə Məhkəməsində tərcüməçi, məhkəmə katibinin köməkçisi, Dairə Məhkəməsində mülki işlər üzrə üçüncü stolun rəisi, Dairə Məhkəməsi prokurorunun köməkçisi vəzifələrində çalışması Eynəli bəyin cəmiyyət həyatını bütün incəliklərinə kimi öyrənməsinə, xalqının acınacaqlı taleyini daha yaxından müşahidə etməsinə, ən əsası da böyük yazıçı, publisist kimi formalaşmasına mühüm təsir göstərmişdir.*



Eynəli bəy Sultanovun ictimai-siyasi fəaliyyəti bədii, publisistik yaradıcılığına da öz təsirini göstərmişdir. Məqalələrində onun siyasi baxışlarının, o dövrün siyasi hadisələrini qərəzsiz, dürüst bir şəkildə təhlilinin, bütün xalqlara olan humanist mövqeyinin şahidi oluruq. Lakin bu publisist nümunələrdən də aydın göründüyü kimi, zamanla, Eynəli bəyin rus və ermənilərə qarşı münasibəti dəyişmiş, görkəmli ədəbiyyatşünas alim Vilayət Quliyevin də qeyd etdiyi kimi, "hər addımda Azərbaycan türklərinə ikinci dərəcəli vətəndaşlar kimi baxan, onların haqlarını tapdayan şovinist rus hakimiyyətini, bu işdə çar məmurlarının dəmtutanı olan erməni təxribatçılarını" mətbuat vasitəsilə tənqid etmişdir.




Eynəli bəyin bu mövzuda yazdığı məqalələri rusların və ermənilərin hələ XX yüzilliyin əvvəllərindən azərbaycanlılara olan nifrətinin, düşmənçilik münasibətlərinin mövcudluğunun sübutu kimi olduqca əhəmiyyətlidir. Bu baxımdan onun "İrəvan hadisələri" məqaləsi maraq doğurur. Məqalədə Eynəli bəyin dövrünün açıqfikirli ziyalısı kimi fəaliyyətindən, xalqları bir-birinə düşmən edən, onların mənəviyyatını təhqir edən yerli burjuaziya və ümumi düşmən olan hakim təbəqələrə qarşı mübarizəsindən, çarizmin milli qırğın siyasətindən bəhs olunur. Məqalənin 1905-ci ildə yazılması heç də təsadüfi deyil. Tarixdən də məlum olduğu kimi, 1905-1907-ci il hadisələri Azərbaycan tarixində ermənilər tərəfindən xalqımıza qarşı törədilən sonralar silsilə halını almış soyqırımının ilk mütəşəkkil mərhələsi olmuşdur. Azərbaycanın bir çox bölgələrində – Bakı, İrəvan, Naxçıvan, Cəbrayıl, Şuşa, Gəncə, Qazax və başqa ərazilərdə qırğınlar planlı şəkildə, etnik təmizləmə məqsədilə törədilmiş, icraçıları bilavasitə və birbaşa ermənilər olmuşdur.

Həmin illərdə Eynəli bəy Sultanovun da İrəvanda yaşaması və baş verən hadisələri şəxsən müşahidə etməsi onun "İrəvan hadisələri" məqaləsində öz əksini tapmışdır: "Kədərli hadisələr bizdə – İrəvanda da qızışdı. Qırğın bizim həmşəhərlilər – ermənilər və tatarlar (azərbaycanlılar) arasında da başladı. Bu "müharibənin" məhz hansı qara qüvvələrin təsiri ilə başlandığını zaman aydınlaşdıracaq".

Qeyd edək ki, Eynəli bəyin bu məqalədə bəhs etdiyi Bakı hadisələri ermənilərin 1905-1906-cı illərdəki müsəlman qırğınının ilk hədəfi idi. Bu haqda Məmməd Səid Ordubadinin "Qanlı illər" əsərində geniş məlumat verildiyi kimi, ermənilər 1905-ci il may ayının əvvəllərində Naxçıvanda, daha sonra isə 23 may tarixdə İrəvanda yenidən qırğınlar törətmiş, çoxlu günahsız azərbaycanlının məhvinə səbəb olmuşlar.

Eynəli bəyin "Səmimilik, yoxsa abırsızlıq?" adlı məqaləsində isə 1905-ci il qırğınları ərəfəsində iki müasir erməni və müsəlman ictimai xadiminin söhbəti zamanı erməni millətinin nümayəndəsinin sözləri onların türklərə, müsəlmanlara olan düşmən münasibətlərinin əyani sübutudur:

– "Deyin, yoldaş, axı sizə məlumdur ki, daim müsəlmanların qurbanlarına çevrildiyi təxribatlar əksər hallarda erməni əhalisinin bir hissəsi tərəfindən törədilir. Bəs niyə bunun əleyhinə nəsə bir tədbir görmürsünüz, mətbuatda çıxış etmirsiniz və sair? Doğrudanmı siz 1905-ci il qanlı hadisələrinin canlı şahidi olmaq istəyirsiniz? Erməni cəmiyyəti bu haqda ciddi düşünməlidir.

– Sizə deyim ki, həmkarım, – erməni cavab verdi, – biz siz müsəlmanlardan qorxuruq. Ona görə qorxuruq ki, siz bizdən nəsə kənarda durursunuz, bizimlə yaxınlaşmırsınız və bizim üçün tapmacasınız. Bu əndişəmizdə rus əsgəri – bizim yeganə müdafiəçimizdir. Axı Allah bilir, Qafqaz cəbhəsində türklərin hücuma keçdiyi təqdirdə siz bizimlə nə edə bilərsiniz...Ona görə də, qonşularımız müsəlmanların firavanlığı bizim proqrama qətiyyən daxil deyil və daxil ola da bilməz". Erməni xadiminin bu sözləri Eynəli bəydə böyük narahatlıq və qayğı yaradır: "...biz soruşuruq, bu səmimiyyətdir, yoxsa həyasızlıq və ədəbsizlik? Allah eləməsin ki, bu "erməni ictimai xadiminin" fikri erməni cəmiyyətinin əksəriyyətinin fikri ola..."

Doğrudan da sonrakı qırğınlar, soyqırımlar, qətliamlar – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdəki qırğınlar nəticəsində 700 mindən artıq Azərbaycan türkünün öz ocaqlarında qətlə yetirilməsi, 3 milyona yaxın azərbaycanlının ata-baba yurdundan sıxışdırılıb çıxarılması bir daha sübut edir ki, Eynəli bəy narahatlığında nə qədər də haqlı idi. Eynəli bəyin də 1916-cı ildə yazdığı "Müdafiəsizlər" məqaləsində tanış müsəlman ziyalının müsəlmanların tarix və bəşəriyyətin mühakiməsi qarşısında müdafiəsiz olmaları barədə narahatlığına Eynəli bəyin verdiyi cavab maraq doğurur: "Müsəlmanların müdafiəsini artıq sayıram. Ermənilər heç də bizə örnək deyil. Qoy onlar, əgər istəyirlərsə, vəkillərin köməyinə müraciət etsinlər. Bizim bunu etməyə ehtiyacımız yoxdur, hətta vicdanımızı rahatlatmaqdan ötrü olsa belə...Bəşəriyyətin mühakiməsi dövlət məhkəməsi deyil, ona müdafiə nitqləri lazım deyil; o bizə vəkillərsiz də bəraət qazandıra bilər...milli şücaətimizin, ali mənəvi mədəniyyətimizin və sair mədh edilməsinə gəlincə isə, inanın, onlar bizə tamamilə lazım deyil. Biz heç vaxt özümüzü reklam etməmişik və etməyəcəyik..." Daha sonra Eynəli bəyin 1918-ci ildə qələmə aldığı "Suallar və cavablar" məqaləsində müsəlmanların Ermənistana tabe olmağa məcbur edən qüvvələrə etdiyi son müraciəti nəinki ermənilərə, onların bütün havadarlarına verilmiş layiqli bir cavabdır: "Sonda isə hamıya bax, bunu deyək: Erməni hakimiyyətinə müsəlmanları tabe olmağa məcbur etmək üçün onları yenidən yaratmaq, təbiətlərini dəyişdirmək lazımdır. Bütün dünyada buna qadir olan hakimiyyət vardırmı?"

Xalqımızın milli-mənəvi tərəqqisi naminə fədakar xidmətləri ilə seçilən Eynəli bəy Sultanov kimi tarixi şəxsiyyətlərin, maarifpərvər ziyalılarımızın xatirəsi bu gün də ehtiramla yaşadılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Eynəli bəy Sultanovun anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında" 2016-cı il 15 fevral tarixli Sərəncamı ilə tanınmış ziyalının yubileyi dövlət səviyyəsində qeyd olunmuş, onun həyat və fəaliyyətinin, yaradıcılığının tədqiqi sahəsində yeni bir mərhələ başlanmışdır. Ali Məclis Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam ilə təsdiq olunan siyahıya daxil edilən kitablardan biri də Eynəli bəy Sultanovun "Məqalələr"idir. Gənclərin vətənpərvər, tarixə, milli kökə bağlı və dünyagörüşlü olması baxımından əhəmiyyətliliyinə görə həmin siyahıda yer alan bu publisistik nümunələr XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycanın ictimai-siyasi həyatının mətbu güzgüsü hesab oluna bilər. Çünki Eynəli bəyin məqalələri 1905-1906-cı illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilən qırğınların, türklərə, müsəlmanlara olan nifrətin, məkrli siyasətin tarixboyu mövcudluğunun real faktlarla sübutudur. Məhz bu səbəbdəndir ki, Eynəli bəyin bu mövzuda yazdığı məqalələri tarixi reallığı özündə əks etdirməsi, o dövrün hadisələrinə işıq tutması baxımından qiymətli mənbədir və aktuallığını həmişə saxlayacaq.

**Sahab ƏLİYEVA**
*AMEA Naxçıvan Bölməsinin Elmi Kitabxanasının direktoru*

## İqtisadiyyat Nazirliyi tərəfindən mağazaların ərzaqla təminatı, ehtiyatların yaradılması diqqətdə saxlanılır

Martın 24-də dünyada pandemiya elan olunan virusun muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərə həsr olunmuş müşavirədə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin qarşısına qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədilə "İcra Planı" hazırlanmışdır. İcra planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində ərzaq mağazaları və apteklər istisna olmaqla, muxtar respublika ərazisindəki bütün iri ticarət mərkəzlərinin fəaliyyəti məhdudlaşdırılmış, mağazaların ərzaqla normal təminatına diqqət artırılmış, aid qurumlarla birlikdə ehtiyatların yaradılması davam etdirilmişdir. Ümumilikdə, 261 ticarət obyektində maarifləndirici monitorinqlər aparılmış, ticarət obyektlərinin sahibkarları məlumatlandırılmışdır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə mövcud vəziyyətlə bağlı fəaliyyətində durğunluq yaranmış xidmət sahələrində işçilərin öz hesabına məzuniyyətə buraxılmasının qarşısının alınması və həmin xidmət sahələrində çalışan işçilərə minimum əməkhaqqı məbləğində vəsaitin ödənilməsinin təmin edilməsi istiqamətində monitorinqlər keçirilmiş və 88 sahibkarlıq subyekti məlumatlandırılmışdır. İcra planından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində işlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Sosial könüllülərin iştirakı ilə tənha ahıllara xidmətlər göstərilməsi davam etdirilir

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mart ayının 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində dünyada pandemiya elan olunan virusun muxtar respublika ərazisində yayılmasının qarşısının alınması ilə bağlı tədbirlərə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilir. Tənha ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması məqsədilə muxtar respublikada tənha yaşayan, yaşı 65-dən yuxarı olan ahıllar yerli icra hakimiyyəti orqanları ilə birgə müəyyən edilir və onlara evlərində sosial xidmət işçiləri və sosial könüllülər tərəfindən zəruri xidmətlər göstərilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə yaşı 65-i keçmiş tənha yaşayan ahılların evlərinə sosial könüllülərin ziyarətləri təşkil olunub. Sosial xidmət işçiləri və könüllülər zəruri qabaqlayıcı tədbirlərə uyğun olaraq sanitar-gigiyenik qaydalara riayət etməklə evlərdə təmizlik işləri aparıb, gətirdikləri tibbi profilatik məmulatları sakinlərə təqdim ediblər.

Qeyd edək ki, bu sosial aksiyaya artıq "Badamlı" şirkəti də qoşulub. Şirkət nümayəndələri də könüllülərlə birgə ahılları ziyarət edib, onlara "Badamlı" mineral sularından ibarət sovqatlar təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Dövlət Universitetinin müəllimi ixtirasına görə patent alıb



Naxçıvan Dövlət Universiteti Nəqliyyat və informasiya texnologiyaları kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Məftun Əliyev Avrasiya Patent Təşkilatının Avrasiya Patent İdarəsi tərəfindən patent alıb.

Patent AMEA-nın İdarətmə İnstitutunun əməkdaşları ilə birgə "Laydan neftin qeyri-stasionar üsulla çıxarılması" adlı ixtirasına görə verilib. Qeyd edək ki, ixtira neft hasilatı sənayesinə, neft yataqlarının işlənməsi və istismarı sahəsinə, o cümlədən qalıq neftin laydan çıxarılması üsullarına aiddir. Göstərilən üsul neftin yüksək keçici məsaməli kanallara və orta neft hasilatının artımına çıxışını artırır.

**Səadət ƏLİYEVA**

## Mövsümi xəstəliklərdən necə qorunaq

***Yaz fəsli bəzi mövsümi xəstəliklərin yayılması dövrü hesab edilir. Xüsusən də havaların dəyişkən keçməsi, qidalanma rejiminə düzgün riayət edilməməsi orqanizmin bioritmini pozur. Nəticədə, mövsümi xəstəliklərə yoluxma halları baş verir. Bəs bu xəstəliklərdən necə qoruna bilərik? Bu barədə Yoluxucu Xəstəliklər Mərkəzinin həkim-infeksionisti Abbas Əliyevlə həmsöhbət olduq.***

Həkim bildirdi ki, müxtəlif infeksion xəstəliklərə yoluxma halları hava-damcı yolu, fekal-oral mexanizmi, yəni qidalanma, əl ilə toxunmaqla baş verə bilər. Bunun qarşısını almaq üçün sanitar-gigiyena qaydalarına ciddi əməl etməli, antibakterial vasitələrdən istifadə edilməlidir. Əlləri teztez sabunla, ən azı 20 saniyə yumalı, onu çirkli şəkildə göz, burun və ağıza toxundurmaqdan çəkinmək lazımdır. Xəstə olduqda kütləvi yerlərə getməyib, yaxın təmasdan qaçmaq lazımdır. Abbas həkim tövsiyə etdi ki, xəstələndikdə öskürüb-asqırarkən ağızınızı və burnunuzu salfetlə və ya dirsəyinizlə örtün, toxunduğunuz əşyaların səthlərini dezinfeksiya edin. Həkim onu da qeyd etdi ki, hər hansı infeksion xəstəliyə yoluxmamaq üçün immunitetin gücləndirilməsi vacibdir. Bunun üçün diyarımızda yaz aylarında yetişən müxtəlif vitaminlərlə zəngin meyvə və tərəvəzlərlə qidalanmaq zəruridir.

Uşaqlarda rast gəlinən həzm sisteminin infeksion xəstəliklərindən də bəhs edən həkim qeyd etdi ki, kiçikyaşlıların orqanizmi həssas olduğu üçün müxtəlif meyvələrin həddən artıq qəbulu və sərinləşdirici içkilərin aramsız olaraq içilməsi problemlərə səbəb olur. Ağartı məhsulları mədə-bağırsaq sisteminin öz işini bərpa etməsində xüsusi əhəmiyyətə malikdir. Ona görə bu tip qidaların qəbuluna havalar istiləşdikcə daha çox yer ayırmaq lazımdır. Əsasən də yağlı yeməklərin qəbulundan sonra ağartı məhsulları mədəyə yüngüllük gətirir ki, bu da həzmin yaxşılaşmasına səbəb olur. Amma gigiyena qaydalarına əməl edilmədən hazırlanan süd və süd məhsulları, kremli və yumurtalı qidalar (mayonez tərkibli souslar), vakuumlu paket açıldıqdan sonra uzun müddət qalan salyami, sosiska, sucuq, pendir kimi qidalar və əlverişli şərtlərdə saxlanılmayan ət, dəniz məhsulları istilərin yüksəlməsi ilə qısa müddətdə xarab olaraq mikroorqanizmlərin daha asan törəməsinə yol açır. Həmçinin kahı, xiyar və cəfəri kimi tərəvəzlər də yaxşı yuyulmadıqda riskli ola bilər.

Abbas Əliyev onu da xüsusi olaraq vurğuladı ki, hazırda Naxçıvan Muxtar Respublikasında sanitar-gigiyenik vəziyyətə nəzarət, şikayəti olan sakinlərin infeksion xəstəliklərə görə tibbi müayinələrdən keçirilməsi xəstəliklərə yoluxma riskini minimuma endirir. Sadaladıqlarımızdan əlavə, muxtar respublikamızın təmiz ekologiyası, iqlim şəraiti, havanın oksigenlə zənginliyi də bunun üçün başlıca şərtdir.

Tanrının qədim yurdumuza bəxş etdiyi təmiz hava, saf bulaqlar, bərəkətli torpaqlarda yetişən bol vitaminli meyvə-tərəvəzlər, min bir dərdin dərmanı olan bitkilər zaman-zaman yurdumuzda infeksion xəstəliklərin yaranmasına bir sədd olub.

**Ramiyyə ƏKBƏROVA**


ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 288